# RÜŞVƏTXORLUĞA QARŞI SİYASƏT

Rüşvətxorluğa qarşı qanunvericilik əməkdaşlar, filiallar, agentlər və ya məsləhətçilər şirkətin biznesi ilə bağlı dünyanın istənilən yerində rüşvət verdikləri və ya qəbul etdikləri hallarda, fiziki şəxslər və təşkilatlara qarşı cinayət məsuliyyəti yaradır. Rüşvətxorluğa görə məhkum olunma, və ya hətta şübhəli bilinmə, məşğul olmanın nəticəsində şirkət və fiziki şəxslər ağır cəzalara məruz qalır. Məhkum olunma şirkətin gələcəyini şübhə altına ala bilər.

Top menecerlər və mən “Caspian Marine Services B.V.” şirkətinin Azərbaycan Respublikasındakı filialının (CMS) etik şirkət kimi fəaliyyət göstərməsini təmin etməyi öhdəmizə götürürük. Hər hansı formada rüşvət və korrupsiyaya yol verilməyəcək. Biz əməkdaşlarımız, agentlərimiz və biznes tərəfdaşlarımızdan işlərini hər zaman ədalətli, vicdanlı və etik şəkildə görəcəklərini gözləyirik.

Fərdi əməkdaş, agent, və şirkətin adından fəaliyyət göstərən digər şəxs tərəfindən hər hansı şəxsdən(şəxsə) və ya şirkətdən(şirkətə) etikadan kənar şəkildə hər hansı bir kommersiya, müqavilə və ya normativ imtiyaz əldə etmək məqsədilə və ya fiziki şəxs və ya fiziki şəxslə bağlı olan digər şəxs üçün hər hansı şəxsi imtiyaz maliyyə və ya digər imtiyaz əldə etmək məqsədilə, nağd və ya digər stimul şəklində hər hansı rüşvətin təklif edilməsi, verilməsi, təhrik edilməsi və ya qəbul olunmasına, onların yerləşdiyi istənilən yerdə və onların dövlət məmuru və ya fərdi sahibkar və ya şirkət olmasında asılı olmayaraq, yol verilməyəcəkdir.

Doğrudur, nəyin məqbul olub olmadığı ilə bağlı qərarlar heç də həmişə asan olmur. Əgər sizdə nə vaxtsa mümkün hərəkətin rüşvət olması ilə bağlı şübhəniz yaranarsa, bu məsələ barədə menecerə, Daxili tələblərə uyğunluq üzrə səlahiyyətli şəxsə, və ya mənə xəbər verilməlidir.

Rüşvətxorluğa qarşısının alınması, aşkarlanması və barəsində məlumat verilməsinə görə CMS şirkəti adından işləyən hər bir şəxs məsuliyyət daşıyır. Mən hər kəsi şirkət daxilində hər hansı rüşvətxorluq fəaliyyətindən şübhələndikdə, bu barədə məsul şəxsə məlumat verməyə çağırıram. Əgər siz rüşvətxorluqla bağlı şübhələndiyiniz barədə vicdanla məlumat versəniz, hətta aparılmış istintaq nəticəsində heç bir rüşvətxorluq faktı aşkarlanmasa belə, sizə hərtərəfli dəstək veriləcək.

Hər hansı rüşvətxorluq fəaliyyəti ilə bağlı şübhə yarandıqda, şirkət tam istintaq həyata keçirəcək və hər hansı rüşvət fəaliyyəti aşkar olunduğu halda, şirkət öz intizam prosedurlarını tətbiq edə bilər ki, bu da kobud pozuntunun aşkarlanması və dərhal işdən azad olma ilə nəticələnə bilər. Rüşvət bizim təchizatçılar, biznes tərəfdaşlarımız və ya agentlərimiz arasında aşkar olunduğu halda, biznes əlaqələrə dərhal və həmişəlik xitam veriləcəkdir.

Bu Rüşvətxorluğa qarşı Siyasət və ya öz öhdəliklərinizlə bağlı hər hansı bir narahatlığınız və ya suallarınız varsa, zəhmət olmasa bu barədə öz menecerinizi məlumatlandırın.

**Fərid Qurbanov,**

**“Caspian Marine Services B.V.” şirkətinin**
**Azərbaycan Respublikasındakı filialının Direktoru**

**Tarix:** *10 May 2022*



*“Nəzarət altında olan orijinal nüsxə” işarəsi ilə nişanlanmadan çap olunmuş nüsxələr nəzarətsizdir və vaxtı keçmiş ola bilər.*